Palitra

5 avqust 2021-ci il

www.paralel.az

e.mail adresi: paralel_qazeta@mail.ru

# Ürəyi Vətənlə döyünən Lerikin qəhrəman oğlu-Orxan

Orxan Mübariz oğlu Dənziyev ağlı kəsən gündən həyatını gələn illərin səfində mənalı, dəyərli yaşamaqdan ötrü bütün varlığı ilə Vətəninə, torpağına bağlanır. Elə onu şəhidlik zirvəsinə də qəlbidəki bu ilahi sevgi aparır. Lerik rayonu, Laman kəndində dünyaya göz açan Orxan yaxşılıq gözündə ucala-ucala əsgərlik yaşına çatır. Doğma el-obada insanların ürəyində xeyirxah əməllər sahibi kimi özünə yer edən bu Vətən sevdalı gəncin əsgərlik həyatı ön cəbhədə başlayır. Doğma Azərbaycanın müqəddəsliyinə tapınmaqla onun hər qarş torpağı uğrunda can qoymağa hazır olur. Vətən qarşısında nümunəvi xidməti çox keçmir Orxanı əsgər yoldaşların, komandirlərin sevimlisi edir.



Cəbhə xəttində erməni dığaları özündən çıxanda Orxan Vətənini canından əziz tutmaqla onların cavabını yaxşı verir. Həm də yağı tapdağına düşən müqəddəs Qarabağ torpaqlarını təmizləmək üçün hərbi təlimlərdə fəal iştirak edir, mübarizə meydanında yağı düşmənə qalib gəlməkdən ötrü döyüş texnikasına mükəmməl yiyələnir.

İkinci Qarabağ müharibəsi başlananda Orxan Dənziyev üçüncü ay idi ki, əsgəri borcunu şərəflə yerinə yetirirdi. O, torpağı qanı ilə Vətən edən xalqımızın mərd, igid oğlanların cərgəsində Ağdərə-Tərtər istiqamətində düşmənlə döyüşə girir. Və odun-alovun içinə atıldığı zaman sona qədər vuruşub Vətən torpaqlarını işğal etmiş yağıdan qisasını alacağına and içir. Orxanın Vətənə olan sevgisi, yüksək döyüş məharəti müharibəyə atıldığı ilk gündən düşməni ağır itki qarşısında qoyur.

Orxan torpaq uğrunda haqq savaşımızda min əzablı-əziyyətli yollar keçir. Vətənin zəfər gününə böyük ümid bəsləməklə erməni dığalarına matəm libası geydirir. Və hər döyüş günü qəhrəmanlı salnaməsi olaraq tarixə yazılır. 2020-ci il 15 oktyabrda yağı gülləsinə tuş gələndə də, ölümü Vətənə şərəf gətirir. Eləcə də ömrünün 18 ilində əbədi yaşamaq üçün böyük bir xalqın qəlbinə köçür.

Ölümündən sonra Orxan "Vətən uğrunda" medalına layiq görülür .Bu da onun Vətənə olan sevgisinə bir nümunədir.